Bank valyuta riskinin ölçülməsi üçün açıq valyuta mövqeyini riskə məruz dəyər (VAR) metodu ilə qiymətləndirir. Əlavə olaraq valyuta məzənnələrinə şok verilərək stres testlər həyata keçirilir.

Bankın açıq valyuta mövqeyi Azərbaycan Respublikasının Mərkəzi Bankının müvafiq qaydaları və normativ limitlər çərçivəsində tənzimlənir.

Valyuta risklərinin qarşısının alınması məqsədi ilə istifadə edilən alətlər (hedcinq alətləri):

Hedcləşdirmə – törəmə maliyyə alətləri, habelə forvard müqavilələri vasitəsilə mübadilə məzənnəsinin dəyişməsindən yarana biləcək itkinin qarşısının alınması.

Törəmə maliyyə aləti - Hər hansı baza aktivini almaq, satmaq və ya dəyişdirmək hüququnu təsbit edən müqavilədir. Baza aktivi qismində qiymətli kağız, valyuta, faiz dərəcəsi, gəlirlik, törəmə maliyyə aləti, əmtəə, maliyyə indeksi, kredit riski və s. çıxış edə bilər.

Fyuçers - Baza aktivinin müəyyənləşdirilmiş növdə və sayda əvvəlcədən razılaşdırılmış tarixə və qiymətə alqı-satqısı üzrə törəmə maliyyə alətidir.

Opsion - Sahibinə birtərəfli qaydada baza aktivini almaq, satmaq və ya svop etmək hüququnu verən törəmə maliyyə alətidir.

Svop - İki tərəf arasında eyni növ baza aktivlərinin dəyişdirilməsi üzrə törəmə maliyyə alətidir.

*Məsul şəxs: Elnur Mirzəyev (Hesabatlıq şöbəsinin müdiri): +994 12 561 22 88 (dax. 1130) | e.mirzayev@expressbank.az*